

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 fevral 2026-cı il №11 (3013) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin ölkəmizə rəsmi səfəri



Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ABŞ-ın Vitse-prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Vitse-prezident Cey. Di. Vensə raport verib.

Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyətinin üzvləri Vitse-prezident Cey. Di. Vensə, Amerika Birləşmiş Ştatları nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin qarşısından keçib.

Sonda rəsmi foto çəkdirilib.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya

**Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti:**

1. İkitərəfli münasibətlərinin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiklərini bir daha təsdiqləyirlər;
2. 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumundan çıxış edirlər;
3. Regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyətini təsdiqləyirlər;
4. Diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlərini vurğulayırlar;
5. Strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyətini təsdiqləyirlər.

**Bölmə I: Regional Bağlantılar, o cümlədən Enerji, Ticarət və Tranzit**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Trans-Xəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı; enerji və data bağlantısı; ticarət və tranzitin asanlaşdırılması; gömrük nəzarəti və sərhəd keçidi; beynəlxalq multimodal logistika; və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər. Onlar 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq iştirakçı ölkələrə beynəlxalq və ölkədaxili bağlantı üçün qarşılıqlı faydaları təmin etməklə, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətini qəbul edirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları "Əsrin müqaviləsi", Cənub Qaz Dəhlizi kimi layihələrin həyata keçirilməsi ilə nəticələnmiş və sıx əməkdaşlıq sayəsində hər iki tərəfə və daha geniş regiona fayda vermiş Azərbaycan-ABŞ münasibətlərinin məhsuldar tarixinə əsaslanaraq, ikitərəfli iqtisadi əlaqələri təşviq etmək məqsədilə biznes mühitinin, ticarət və sərmayə axınlarının inkişaf etdirilməsi istiqamətində çalışmaq niyyətindədirlər. Bu məqsədlə:

(Ardı 3-cü səhifədə)

## İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatları məhv ediləcək

İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla fevralın 9-13-də Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırır.

## Ötən həftə 105 mina və 223 partlamamış hərbi sursat zərərsizləşdirilib




*Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən fevralın 2-8-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.*

*ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 97, tank əleyhinə 8 mina və 223 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.*

*Həmçinin 669,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.*

## Şəxsi intizam uğurun başlanğıcıdır

Həyatın önəmli peşələrindən biri də sürücülükdür. Avtomobilsiz insan həyatını bu gün təsəvvür etmək mümkün deyil. Hər gün milyonlarla insan avtomobil xidmətindən istifadə edir. Hərbçilərin də avtomobillərdən daha çox istifadə etdiyinin şahidi oluruq. Belə ki, şəxsi heyətin daşınmasında, ərzaq, əşya, döyüş sursatları və digər təminatların çatdırılmasında minik və yük avtomobillərinin xidməti gündəlik həyat fəaliyyətinə çevrilib. Sistem elə qurulub ki, bir gün avtomobillərin hərəkətinə məhdudiyyət qoyulsa, sanki həyat dayanır.

(Ardı 8-ci səhifədə)

# Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin ölkəmizə rəsmi səfəri

**(Əvvəli 1-ci səhifədə)**

Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə məhdud tərkibdə görüşü olub.

* * *

Fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib.





Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens imzalayıblar.

* * *

Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə geniş tərkibdə görüşü keçirilib.

Qonaqları salamlayan **Prezident İlham Əliyev** deyib: Hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmək bizim üçün böyük şərəfdir. Biz elə indicə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, həmçinin regional inkişafı müzakirə etdik. İndi biz daha geniş kontekstdə dialoqumuzu davam etdirəcəyik.

Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir. Bu gün tərəfdaşlığımız rəsmi şəkildə daha yüksək səviyyəyə qalxacaq. Fəaliyyətin həcmi və komandalarımız arasında qarşılıqlı əlaqələr həqiqətən yüksəksəviyyəli tərəfdaşlıq ruhunu nümayiş etdirir.

Sizə yaxşı vaxt keçirməyi arzulayıram və əminəm ki, səfər bizim güclü əməkdaşlığımıza daha bir töhfə olacaq. Bir daha xoş gəlmisiniz.

* * *

**Vitse-prezident Cey. Di. Vens** deyib: Çox gözəl. Prezident Əliyev, bizi qəbul etdiyinizə görə Sizə və Sizin komandanıza təşəkkür edirəm. Burada ABŞ Hökumətinin ən parlaq nümayəndələrindən bəziləri əyləşib. Prezidentimiz Sizə öz salamlarını, xoş arzularını çatdırır və tərəfdaşlığınız üçün Sizə minnətdardır. Azərbaycan və Ermənistan arasında Prezident Trampın vasitəçilik etdiyi sülh razılaşması düşünürəm ki, onun vasitəçiliyi ilə olan yeddinci və ya səkkizinci sülh razılaşmasıdır. Bilirəm ki, Prezident Tramp bununla çox qürur duyur, çünki o, Sizin ölkənizə, həm də Ermənistana heyrandır. Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvlərə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram.

Bilirəm ki, o, aranızdakı tərəfdaşlığa və dostluğa, rəhbər heyətlər və administrasiyaları mız arasında münasibətlərə görə çox minnətdardır. Burada olmaq çox xoşdur. Düşünürəm ki, bizim çox maraqlı söhbətlərimiz olacaq. Əlbəttə ki, biz Strateji Tərəfdaşlıq Xartiyasını imzalayacağıq və mən bunu səbirsizliklə gözləyirəm.

Bu, ötən il bir çox nailiyyətləri olan dostlar arasında baş tutan yaxşı bir görüşdür və hesab edirəm ki, növbəti üç ildə biz daha çox nailiyyət qazanacağıq. Bizi qəbul etdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

* * *

ABŞ-ın Vitse-prezidenti sülh gündəliyinin irəli aparılmasında Prezident İlham Əliyevin nümayiş etdirdiyi liderliyi vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxunub.

Cey. Di. Vens Azərbaycanda hökm sürən tolerant mühiti qeyd edərək, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi sülh və dostluq şəraitində yaşadığını vurğulayıb.

Söhbət zamanı TRIPP nəqliyyat dəhlizinin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycanla ABŞ arasında siyasət, iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, süni intellekt, data mərkəzlərinin yaradılması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

* * *

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Vitse-prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab Vitse-prezidenti Azərbaycanda rəsmi səfərdə salamlamaq bizim üçün böyük şərəfdir. Bu gün bizim ikitərəfli gündəliyin bir çox məsələlərini əhatə edən əla söhbətimiz oldu. Biz Azərbaycana çox müsbət münasibətə görə Tramp-Vens administrasiyasına olduqca minnətdarıq. Strateji Tərəfdaşlıq haqqında Xartiyanın bu gün imzalanması mərasimi həyatlərimizin altı ay ərzində gördüyü çox gərgin işin təzahürüdür. Altı ay əvvəl Prezident Trampla Vaşinqtonda tarixi görüş və Strateji Tərəfdaşlıq haqqında Xartiyanın tərtib edilməsi üçün işçi qrupunun yaradılması haqqında sənədin imzalanması ikitərəfli əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır.

Bizim üçün dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, Vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik.

Biz bu cür böyük töhfəyə görə ABŞ Hökumətinə çox minnətdarıq. Biz Azərbaycan vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə nəinki bütün məhdudiyyətləri qaldırmışıq, o cümlədən özümüz Ermənistana neft məhsullarının təchizatına başlamışıq. Beləliklə, ticarətin və əməkdaşlığın başlanğıcı reallaşır. Tramp-Vens administrasiyasının regionumuzdakı səylərinin mühüm nəticələrindən biri Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu - TRIPP layihəsidir ki, o, nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir. Beləliklə, regionda sülh sahəsində əldə olunmuş nəticələr gücləndirilir. Bu gün Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur.

Əziz qonaqla imzaladığımız Xartiyada əməkdaşlığımızın müxtəlif istiqamətləri əks olunur. Biz təhlükəsizlik və antiterror əməliyyatları məsələləri üzərində işimizi davam etdirəcəyik. Bu gün Azərbaycan öz təbii qazı ilə 16 ölkənin enerji təhlükəsizliyini təmin edir. Onların 11-i NATO-nun üzvü, ABŞ-ın müttəfiqidir.



Bağlantılara gəldikdə, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq. Biz müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu, həmçinin perspektivlidir. Əlbəttə ki, süni intellekt mərkəzlərinin yaradılması bu gün ikitərəfli gündəliyimizin bir hissəsidir və Amerikanın aparıcı şirkətləri ilə işbirliyi quraraq artıq ilkin nəticələrimiz var. Başqa sözlə, Vitse-prezident Vensin bugünkü səfəri imzalanmış Strateji Xartiya, danışıqların mahiyyəti, dostumuz və qonağımızın qəbulu baxımından tarixidir. Cənab Vitse-prezident, xoş gəlmisiniz.

* * *

Sonra ABŞ-ın Vitse-prezidenti bəyanatla çıxış edib.

**Vitse-prezident Cey. Di. Vensin bəyanatı**

- Təşəkkür edirəm Prezident Əliyev. Mən ABŞ Prezidentinin şəxsən Sizə, eləcə də Azərbaycan xalqına ən səmimi salamlarını çatdırmaq istəyirəm. Düşünürəm ki, bu, ABŞ üçün çox uzunmüddətli, çox mühüm tərəfdaşlıq və dostluqdur. Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-ın hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar. Bu gün biz bu dostluğa təşəkkür əlaməti olaraq buraya gəlmək istəyirdik, sözün əsl mənasında, səhifə çevirmək və növbəti fəslə keçmək istəyirdik.

Düşünürəm ki, Prezident Trampın və Prezident Əliyevin rəhbərliyi ilə daha güclü və daha yaxşı münasibətlər qurulacaq. Burada - Azərbaycanda danışmaq və elan etmək üçün çox məsələlər var.

Fikrimcə, biz burada baş verən bəzi əla məsələlər haqqında bütün günü danışa bilərdik. Ərazi sularınızın qorunması ilə bağlı Azərbaycana bəzi yeni qayıqları göndərəcəyik. Biz fərəhlə elan edirik və düşünürəm ki, mən Azərbaycanın iki hissəsini birləşdirəcək Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu ilə bağlı gələn ilk şəxs oldum.

**(Ardı 3-cü səhifədə)**

# Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin ölkəmizə rəsmi səfəri

(Əvvəli 2-ci səhifədə)

Ümidimiz Azərbaycan ilə Ermənistan arasında həqiqətən inanılmaz sülh sazişinin dayanıqlı olmasını mümkün edəcək iqtisadi, təbii sərvətlər, əsas minerallarla bağlı əməkdaşlığın qurulmasıdır. Bilirik



ki, toqquşmanın qarşısını alacaq və müharibələrə imkan verməyəcək mühüm məsələlərdən biri iki xalq arasında qarşılıqlı mədəni mübadilələrdir. Onlar birgə çalışanda böyük əmin-amanlıq yaranır və bir-biri ilə mübarizə aparmır.

Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. Bu gün mən Ermənistanda idim. Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin liderliyi olmasaydı, biz sülh sazişinə nail ola bilməzdik. Düşünürəm ki, üç şəxs tarixi sülhü yaratdı. Bu ölkənin Prezidenti, Ermənistanın Baş naziri və əlbəttə, ABŞ Prezidenti birgə işləyərək, əvvəllər müharibə olmuş məkanda sülh yaratdılar. Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir. Bu məsələlərdə ABŞ Prezidenti xarici siyasətimizi qurur. Bir halda ki, biz ticarətlə məşğul ola, tərəfdaşlıq qura biləriksə, nəyə görə biz bir-birimizlə vuruşmalıyıq?!

Fikrimcə, ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq. ABŞ-ın iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Bununla daha təkmil dünya yaranacaq ki, insanlar bir-biri ilə vuruşmasınlar, ticarət aparsınlar.

Düşünürəm ki, bu, ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin özəyidir. Biz ümumi maraqlar əsasında çıxış edə və bir-birimizlə daha böyük işlər qura bilərik. Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Fikrimcə, bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək.

Şəxsən öz tərəfimdən qeyd edim ki, mən burada olmaqdan çox şadam. Enişdən əvvəl işçilərimə deyirdim ki, Prezident Tramp kimi Prezident Əliyev də dünyada türklər və israillilər ilə həqiqətən yaxşı münasibətlərə malikdir.



Həmçinin birincisi, burada yeməklər çox ləziz olmalıdır. İkincisi isə, ölkə başçısı həqiqətən cəlbedici şəxsdir. Mən təsdiqləyə bilərəm ki, o, çox cəlbedicidir. Bir az sonra biz yeməkləri dadacağıq və əminəm ki, o da ləziz olacaq.

İcazə verin, həmçinin qeyd edim ki, ikinci xanım və mən bu gün axşam ziyafətdə iştirak etməkdən çox məmnunuq. Belə başa düşürəm ki, Azərbaycanın Birinci vitse-prezidenti Prezidentin həyat yoldaşıdır və ümid edirəm ki, bu, ikinci xanımı hər hansı başqa bir fikrə gətirmir. Mən bunları şəxsən öz tərəfimdən, eləcə də böyük xalqlarımızın dostluğu baxımından söyləmək istəyirəm. Burada olmaqdan çox böyük şərəf hissi duyuram və müzakirəni davam etdirməkdən çox məmnunam.

Tanrı sizi qorusun. Çox sağ olun.



**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya

(Əvvəli 1-ci səhifədə)

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Orta Dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları regional bağlantıların əhəmiyyətini qəbul edərək, enerji və nəqliyyat sektorlarına, eləcə də rəqəmsal infrastrukturun inkişafına dövlət və özəl sektor sərmayələrini səfərbər etmək imkanlarını araşdırmaq niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycan Respublikasının strateji əhəmiyyətini qəbul edərək, ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində neft, qaz və elektrik enerjisi sektorları da daxil olmaqla, enerji əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları mülki nüvə əməkdaşlığını dərinləşdirmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kritik minerallarin Orta Dəhliz vasitəsilə qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq etmək niyyətlərini ifadə edirlər.

### Bölmə II: İqtisadi Sərmayələr, o cümlədən Süni İntellekt (AI) və Rəqəmsal İnfrastruktur

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi artımı gücləndirmək, sərmayələri təşviq etmək və ikitərəfli biznes mühitini inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər. Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının qlobal iqtisadiyyata daha da inteqrasiya etmək və Xəzər regionu üçün enerji, ticarət, data, maliyyə, nəqliyyat və logistika şəbəkəsi kimi mövqeyini gücləndirmək səylərini alqışlayır;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi və ya ticarət dialoqu platformalarının təşkili imkanlarının araşdırılması da daxil olmaqla, ikitərəfli ticarət və sərmayələri artırmaq üçün strateji fürsətləri müəyyənləşdirmək niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları özəl sektorun fəal iştirakı ilə ikitərəfli və regional iqtisadi, ticarət və sərmayə əməkdaşlığını inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları AI tərəfdaşlıqlarının inkişaf etdirilməsi üzrə əməkdaşlığı genişləndirmək və müvafiq hallarda kosmik sənaye sahəsində əməkdaşlığı və Azərbaycan Respublikasında özəl sektorla əməkdaşlıq ilə AI data mərkəzlərinin inkişafı da daxil olmaqla rəqəmsal infrastruktura sərmayə qoyuluşunu təşviq etmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları uğurlu beynəlxalq təcrübələrə əsaslanaraq, özəl müəssisə kapitalını təşviq etməyə, texnoloji inkişafı erkən mərhələdə riskdən azad etməyə və kommersiyalaşmanı sürətləndirməyə yönəlmiş birgə Tədqiqat və İnkişaf (R&D) dəstək alətləri, innovasiya körpü platformaları, eləcə də kibertəhlükəsizlik və süni intellekt sahəsində sektorəsaslı təşəbbüslər kimi məxsusi mexanizmlərin yaradılmasını araşdırmaq niyyətindədirlər;

6. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları inkişafda olan texnologiyaların, platformaların və biznes təcrübələrinin tətbiqində uğurlu təcrübələri bölüşmək və texniki yardım göstərmək, dəstəkləyici tənzimləyici mühitə əsaslanaraq Azərbaycan Respublikasında istedadların inkişafı və bacarıqlı texnoloji işçi qüvvəsinin artımı üçün tərəfdaşlığı gücləndirmək və transsərhəd və Trans-Xəzər rəqəmsal bağlantılar üçün sərmayələri təşviq etmək niyyətindədirlər;

7. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasında rəqəmsal infrastrukturun inkişafı və AI tətbiqi üçün birgə tədqiqatı, inkişafı, kommersiyalaşmanı, texnologiyanın mühafizəsini və qarşılıqlı müəyyən edilmiş şərtlər əsasında, hüquqi və tənzimləyici çərçivələrə uyğun olaraq texnologiyaların könüllü ötürülməsini dəstəkləmək məqsədilə hökumətlərarası səviyyədə və dövlət-özəl tərəfdaşlıqları vasitəsilə əməkdaşlıq etmək niyyətindədirlər.

### Bölmə III: Təhlükəsizlik Əməkdaşlığı

Cənubi Qafqazda sülh Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının ortaq marağındadır və Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təhlükəsizlik əməkdaşlığı hər iki dövlətə, eləcə də beynəlxalq və regional sülh və təhlükəsizliyə fayda verir. Birləşmiş Ştatlar Azərbaycan qüvvələrinin beynəlxalq və regional təhlükəsizliyi irəlilətmək üçün Birləşmiş Ştatlar və koalisiya tərəfdaşları ilə birlikdə xidmət etdiyini nəzərə almaqla, Azərbaycanın beynəlxalq sülhməramlı səylərə verdiyi töhfələri yüksək dəyərləndirir.

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları müdafiə sənayesi məhsullarının satışı da daxil olmaqla, müdafiə və təhlükəsizlik əməkdaşlığının əhatə dairəsini genişləndirmək niyyətindədirlər;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları terrorizm təhdidinə qarşı birgə mübarizə aparmaq öhdəliklərini nəzərə alaraq, mövcud antiterror əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

3. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi sahəsində bacarıqları artırmaq məqsədilə əməkdaşlığı gücləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının mina və digər partlayıcı maddələrlə çirklənmə səbəbindən üzləşdiyi ciddi çətinlikləri nəzərə alaraq, maliyyə dəstəyi və texnologiya ötürülməsi vasitəsilə humanitar minatəmizləmə sahəsində potensialın artırılmasında əməkdaşlıq etmək niyyətindədirlər.

### Bölmə IV: İnstitusional Çərçivə və Tətbiq

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları bu Xartiyadan irəli gələn öhdəliklərini yerinə yetirməklə bağlı ortaq niyyəti qəbul edərək mövcud Strateji Tərəfdaşlıq çərçivəsinin bir hissəsi kimi, iqtisadiyyat və ticarət; enerji; bağlantılar, AI və rəqəmsal inkişaf; təhlükəsizlik və müdafiə daxil olmaqla, əməkdaşlıq sahələri üzrə İşçi Qrupları yarada bilərlər.

Müvafiq İşçi Qrupları hazırkı Xartiyanın imzalanmasından sonrakı üç ay ərzində layihələrin siyahısını və onların həyata keçirilməsi üçün yol xəritələrini razılaşdırmaq niyyətindədirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları hazırkı Xartiya çərçivəsində ildə ən azı bir dəfə müntəzəm olaraq görüşmək niyyətindədirlər və tərəfdaşlıqlarının həyata keçirilməsi üçün zəruri olan və qarşılıqlı surətdə müəyyən edilmiş digər dialoq platformaları yarada bilərlər.

**Azərbaycan Respublikası Hökuməti adından**

**Amerika Birləşmiş Ştatları Hökuməti adından**

# Azərbaycan nümayəndə heyəti “World Defense Show” sərgisində iştirak edib

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbər heyəti Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən "World Defense Show 2026" beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edib.*







Müdafiə Nazirliyi xəbər verir ki, dünyanın tanınmış və aparıcı şirkətlərinin iştirak etdiyi sərgidə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin stendində şirkətin və ölkəmizdən olan digər özəl şirkətlərin məhsulları təqdim olunub.

Nazirliyin rəhbər heyəti stendlərdə nümayiş olunan müasir silah, texnika, aviasiya və uçuş vasitələrinin nümunələri, eləcə də süni intellekt və kibertəhlükəsizlik sahələrində ən son yeniliklər ilə tanış olub.

Səfər zamanı müdafiə naziri general-polkovnik Zakir Həsənov Səudiyyə Ərəbistanının müdafiə naziri Xalid bin Salman və bir sıra şirkət rəhbərləri ilə görüşüb. Görüşlərdə hərbi-texniki əməkdaşlıq istiqamətində qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, müdafiə sənayesi üzrə mühüm platforma hesab olunan "World Defense Show" sərgisi dünyanın qabaqcıl şirkətlərini bir araya gətirir, innovativ texnologiyalar üzrə təqdimatlar, strateji əməkdaşlıq və işgüzar görüşlərə ev sahibliyi edir.








# “Avtomobilləri saz vəziyyətdə saxlamalıyıq”

Ordunun döyüş gücü yalnız silahın atəş məsafəsi və ya texnikanın gücü ilə ölçülmür. Bu gücün arxasında görünməyən, lakin həlledici bir amil dayanır - şəxsi heyətin ona etibar edilən silah və texnikaya göstərdiyi məsuliyyətli münasibət. Çünki döyüş meydanında hər saniyə, hər detal, hər mexanizm həyati əhəmiyyət daşıyır.

Azərbaycan Ordusunda bu məsuliyyət anlayışı sistemli və planlı şəkildə formalaşdırılıb. Təsdiq edilmiş illik fəaliyyətlər planına uyğun olaraq həyata keçirilən kompleks tədbirlər çərçivəsində şəxsi heyət öz ixtisasına uyğun olaraq döyüş texnikalarına, hərbi avtomobillərə və silahlara mütəmadi texniki qulluq göstərir. Bu proses təkcə texniki əməliyyatlar silsiləsi deyil, həm də peşəkarlığın, intizamın və Vətənə xidmət ruhunun təzahürüdür.

Texnikanın saz vəziyyətdə saxlanılması ordunun gündəlik döyüş hazırlığının əsas sütunlarından biridir. Hər bir boltun, hər bir mexanizmin vaxtında yoxlanılması, nasazlıqların aradan qaldırılması ordunun qarşısında duran tapşırıqların fasiləsiz və dəqiq icrasına zəmin yaradır. Bu baxımdan texniki qulluq prosesində iştirak edən hər bir hərbi qulluqçu öz işinin strateji əhəmiyyətini dərindən dərk edir.

Son illərdə ərazi bütövlüyümüzün təmin olunması ilə nəticələnən tarixi Zəfərdən sonra Azərbaycan Ordusunun daha da gücləndirilməsi, müasir tələblər səviyyəsində formalaşdırılması istiqamətində görülən işlər ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir. Bu inkişaf yalnız yeni texnika və silahların əldə olunması ilə deyil, mövcud imkanların düzgün qorunması və effektiv istifadəsi ilə də ölçülür.

Biz də bu sistemli və məsuliyyətli fəaliyyətin canlı şahidi olduq. "N" hərbi hissəsinin avtomobil parkında şəxsi heyətin texnikalara göstərdiyi qayğını, işə yanaşmadakı dəqiqliyi və peşəkarlığı izlədik. Burada hər bir hərbi avtomobil, hər bir döyüş vasitəsi sadəcə texnika deyil, Vətənin müdafiəsinə hazır vəziyyətdə saxlanılan etibarlı vasitə kimi qorunur. Məhz bu yanaşma Azərbaycan Ordusunun döyüş qabiliyyətinin davamlılığını və gücünü təmin edən əsas amillərdən biridir.

Avtomobil parkında gördüyümüz iş yalnız texniki proseslərin icrası deyildi - bu, döyüş təcrübəsi, məsuliyyət və peşəkarlığın vəhdəti idi. Burada hər bir mexanizmə göstərilən qayğı, əslində, döyüş meydanında qazanılmış təcrübənin sülh dövründə davam edən məsuliyyəti davamı kimi diqqət çəkirdi.

Bu proses zamanı uzun illər xidmət yolu keçmiş, döyüşlərdə iştirak etmiş hərbi qulluqçularla söhbətləşdik, onların avtomobillərə göstərdiyi texniki qulluğu yaxından izlədik.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu



əsgər, sürücü Rəhim Ələmşah oğlu Orucov 1994-cü il avqustun 15-də anadan olub. Artıq 12 ildir ki, hərbi xidmətini layiqincə yerinə yetirir. 2016-cı ilin Aprel döyüşlərinin, 44 günlük Vətən müharibəsinin və antiterror əməliyyatının iştirakçısı olan Rəhim Orucov əslən Şabran rayonundandır, hazırda Sumqayıt şəhərində yaşayır. O, Vətən müharibəsindəki xidmətlərinə görə, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Texniki qulluğun gedişində abtomobilin mühərrik hissəsini diqqətlə yoxlayan Rəhim Orucov bildirdi: "Döyüş vaxtı texnikanın səni yarı yolda qoymaması üçün sülh dövründə ona gözün kimi baxmalısan. Mən bu texnikaya sadəcə avtomobil kimi yox, döyüş yoldaşı kimi yanaşıram. Vaxtında edilən texniki qulluq sabah verilәcək tapşırığın problemsiz icrası deməkdir".

Avtomobil parkında söhbətləşdiyimiz digər hərbi qulluqçu sürücü Elsevər Elxan oğlu Qədirov oldu. 1985-ci il mayın 19-da anadan olan Elsevər Qədirov da 12 illik xidmət stajına malikdir. O, 44 günlük Vətən müharibəsinin və antiterror əməliyyatının iştirakçısıdır. "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Antiterror əməliyyatı zamanı yaralanmasına baxmayaraq, bu gün də xidmətini böyük məsuliyyətlə davam etdirir.

Elsevər Qədirov texniki baxış zamanı fikirlərini bizimlə də bölüşdü: "Döyüşlər zamanı texnikanın idarə edilməsində səhlənkarlığa yol vermək olmaz. Çünki bir nasazlıq təkcə sürücünün deyil, bütöv bölmənin təhlükəsizliyini risk altına qoya bilər. Biz avtomobilləri elə saz vəziyyətdə saxlamalıyıq ki, istənilən anda döyüş tapşırığını yerinə yetirməyə hazır olsun".

Bu hərbi qulluqçuların işinə baxarkən aydın hiss olunur ki, avtomobil parkı sadəcə texnikanın saxlandığı məkan deyil. Bura intizamın, döyüş xatirələrinin və gələcək məsuliyyətin bir araya gəldiyi strateji sahədir.

Bu gün Azərbaycan Ordusunun gücü yalnız müasir silah və texnika ilə ölçülmür. Onun əsas gücü həmin texnikaya sahib çıxan, döyüşdə sınanmış, sülh dövründə isə eyni məsuliyyətlə xidmət edən peşəkar şəxsi heyətdir. Avtomobil parkında gördüyümüz mənzərə bunu bir daha təsdiqlədi: buradakı hər bir hərbi qulluqçu texnikaya qulluq etməklə, əslində, ordunun döyüş qabiliyyətinə, tapşırıqların fasiləsiz icrasına və dövlətimizin təhlükəsizliyinə xidmət edir.

Rəhim Orucov və Elsevər Qədirov kimi döyüş yolu keçmiş hərbçilərin bu gün də eyni məsuliyyətlə xidmət etməsi Azərbaycan Ordusunda varisliyin, peşəkarlığın və yüksək döyüş ruhunun göstəricisidir. Məhz bu səssiz, lakin əhəmiyyətli xidmət sahələri sayəsində ordumuz hər an verilən tapşırığa hazır, güclü və etibarlı olaraq qalır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun “Azərbaycan Ordusu” - 34 il

*Dürüst sözün işığı görünmür, duyulur, hiss edilir. Sözdən güc alanlar da var, sözün gücünü alanlar da. Sözün tozunu silənlər də var, sözü tozda boğanlar da. Sözü nərdivan eləyənlər də var, sözə nərdivan olanlar da. Sözün qədrini bilənlər də var, sözə qədər olanlar da. Doğru sözü günüləyən də var, küt sözüylə doğru sözü künd eləyən də. Doğru sözü bölənlər də var, ayə bilənlər də. Həsən bəy Zərdabini xatırlayıram: "...Bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələlxüsus da doğru söz...". "Azərbaycan Ordusu" qəzetinin işığı 34 ildi işıqlar içində səmimiliklə seçilir. Oxucusuyla 3012 dəfə görüşüb, hər görüşündə sözü minlərlə söz həvəslisinin sözünə söykək olub, sözü dinlənilib.*




İlk sayı Müdafiə Nazirliyi İctimaiyyətlə Əlaqələr şöbəsinin nəzdində 1992-ci il fevralın 11-də dərc edilən "Xalq Ordusu" (indiki "Azərbaycan Ordusu") qəzetinin ilk redaktoru kapitan (indi ehtiyatda olan polkovnik) Üzeyir Cəfərov olub. 34 ildir ki, Azərbaycanda ordu quruculuğunun söz cəfakeşidir. İlk saylarından Ermənistanın Azərbaycana qarşı elan etmədən başladığı işğalçılıq müharibəsi haqqında informasiyalar, zarisovkalar, məqalələr, reportajlar dərc edən "Xalq Ordusu" qəzeti ordumuzun şəxsi heyətinin hərbi vətənpərvərlik düşüncələrinin söz ortağı olub. O illərdə sərhəd rayonlarında müdafiə döyüşləri haqqında, döyüşənlər haqqında təqdim edilən məqalələr həm tarixi idi, həm də döyüşə-döyüşə formalaşan, formalaşa-formalaşa döyüşən ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının formalaşmasında mühüm, mətbu vasitə.

İlk hərbi mətbu orqan olan bu qəzetin əməkdaşları elan edilmədən başlayan müharibədə ön xətdən, Qarabağda düşmənlə döyüşən rayonlarımızdan xüsusi buraxılışlar hazırlayırdılar. Ordunun şəxsi heyəti də, döyüşlərə yaxın ərazilərdə yaşayan əhali də bu qəzeti ruhunun söz sirdaşı bilirdi. 1992-ci il fevralın 27-də Füzulinin Dördlər kəndində yaşayanların müharibə haqqında, müharibədə ordumuzun (və əhalinin!) qazanacağı qələbə haqqında dedikləri, deyilənlərin söz kimi qəzetdə ifadə edilməsi, postdan zərurətə görə kəndə gəlmiş orta yaşlı bir kişinin (az sonra bildik ki, müəllimdi) söhbət zamanı qəzetdə dərc edilənləri mənəvi silah adlandırmasını inam bilmişdik. Qəzetin növbəti sayında bu inam digər rayonların kəndlərində yaşayanların da inamı kimi təqdim edilmişdi. Qacar kəndinin müdafiəçilərinin qətiyyəti, döyüş əzmi, qələbə ruhu digər rayonların yerli müdafiə bölmələrinin qətiyyəti, döyüş əzmi, qələbə ruhu kimi...

Müdafiə nazirinin əmri ilə iyun ayında "Xalq Ordusu" qəzetinin fəaliyyəti səbəbsiz, naməlum müddətə dayandırılanda, əməkdaşların bir qrupu Goranboy rayonuna ezam ediləndə ilk hərbi qəzet fəaliyyətini dayandırmadı, Rəşid Faxralı ilə Knyaz Aslanın təşəbbüsü, icraçılığı (müəllifliyi) ilə qəzetin A-3 formatında 20-dən çox səyyar sayı nəşr olundu. Bu, Azərbaycan mətbuatında bir ilk oldu. Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsində Müdafiə Nazirliyi Mətbuat Xidmətinin, Hərbi Nəşriyyatın və "Azərbaycan Ordusu" qəzetinin əməkdaşlarının iştirakı ilə döyüşün içində, döyüşənlərin nəfəsinin əhatəsində üç istiqamətdə A-3 formatında 4 səhifə həcmində üç səyyar qəzet ("Sən qalib gələcəksən!", "Qalibiyyət döyüşü", "Qələbə uğrunda") nəşr edildi. Hər gün. Döyüşlərin hər gününü əhatə etməklə. Bu baxımdan tarixi Zəfərin qazanılmasında "Azərbaycan Ordusu" qəzetinin də xidmətləri var. Qəzetin iki əməkdaşı - Mahmud Möhbalıyev və Ruslan Həsənzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə, üç əməkdaşı - Ceyhun Cəfərli, Orxan Hüseynli və Oruc Mustafayev isə Azərbaycan Respublikasının Prezidenti adından Azərbaycan Respublikası müdafiə nazirinin əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olundular.

İstər İkinci Qarabağ müharibəsində, istərsə də antiterror əməliyyatında döyüşlərdən hazırlanan operativ informasiyalar, reportajlar müharibə tarixi kimi dəyərləndirilməlidir. Müxbir -döyüşçü ünsiyyəti dürüst sözün, dürüst operativliyin təcəssümü idi və xalq da, döyüşənlər də müharibənin tarixinin bir hissəsini "Azərbaycan Ordusu"ndan oxuyurdu, tarixən belə oxunulacaq da ("Tikdim ki, (mahiyyət baxımından: yazdım ki) izim qala" deyimi də var...)...











Müharibə müddətində "Azərbaycan Ordusu" qəzetinin bütün sayları döyüşlərə, döyüşənlərə həsr olunurdu. Bu baxımdan qəzetin özü də müharibə iştirakçısı idi. Qürurla xatırladırıq ki, "Azərbaycan Ordusu" qəzetində Füzuli işğaldan azad ediləndə "Torpağım bəsdi mənə!", Şuşa işğaldan azad ediləndə "Salam, ruhumuzun şəhəri Şuşam!" poemaları dərc olundu, qələbənin ovqatı yaşanıldığı ilk günlərdə! Yeri gəlmişkən, qəzetdə hərbi vətənpərvərlik ruhunun ifadəsi olan şeirlər də davamlı şəkildə təqdim olunur.

Qəzetdə ordu quruculuğunun, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, Müdafiə Nazirliyinin ayrı-ayrı idarə və şöbələrinin fəaliyyəti haqqında dürüst sözə əsaslanan informativ (və publisistik) məqalələr, müsahibələr dərc edilir, ediləcək də. Bunlar da mahiyyət baxımından tarixdir; "Azərbaycan Ordusu" qəzeti Müdafiə Nazirliyinin salnaməsini də tarixləşdirir, səhifələrində bütün qoşun növlərinin fəaliyyəti, müxtəlif miqyaslı təlimlər, beynəlxalq təlimlər, ikitərəfli hərbi əməkdaşlıq və s. haqqında həm cari, həm də analitik məqalələr də müntəzəm dərc olunur.

Qəzetdə qəzetçilik baxımından gərəkli rubrikalarla təqdim edilən məqalələr bilavasitə mənəvi-psixoloji hazırlığın yüksəlişinə istiqamətləndirilir. "Nümunəvi xidmət", "Gənc zabitlərimiz", "Əsgərin tribunası", "Ordu quruculuğu", "Hərb tariximiz", "Tarix necə varsa", ... kimi rubrikalar bu qəbildəndir. Qəzetdə nümunəvi xidməti təqdir edilmiş əsgər haqqında məqalə dərc edilmişdi. Bir neçə ildən sonra onun haqqında "Gənc zabitlərimiz" rubrikası ilə məqalə hazırlandı. Əvvəlki məqalə ilə zərrəcə bağlılığı olmadan. Hərbi hissənin komandirinin təqdimatı ilə. Həmin zabit qürurla xatırlamışdı ki, "Azərbaycan Ordusu"nun etimadını da doğrultduğum üçün taleyimdən razıyam. Həmin qürurun eynini mətbu orqan olaraq "Azərbaycan Ordusu" da yaşadı...

Qəzetin əməkdaşları MDB məkanında da, xarici dövlətlərdə də iştirak etdiyi müxtəlif miqyaslı, müxtəlif təyinatlı təlimlərdən maraqlı reportajlar hazırlayırlar. Bu məqalələr təkcə xidməti mətbu hesabat kimi deyil, həm də hərbi hesabat kimi tarixləşdirilir...

"Azərbaycan Ordusu" ənənəvi jurnalistika müstəvisində yeni ənənələr yaradan, onları formalaşdıran qəzetlər sırasındadır: əsgərlər arasında birliklər üzrə inşa müsabiqəsi təşkil etmişdi, hərbi xidmətdən sonra təhsilini davam etdirməyə niyyətli olan əsgərlərin müxtəlif fənlər üzrə qəbul imtahanına hazırlaşmasına yardımçı olmaq məqsədilə test müsabiqəsi də əhəmiyyətli olmuşdu. Hər iki müsabiqənin qaliblərinə diplomlar və Həmkarlar Konfederasiyasının pul mükafatı təqdim edilmişdi. Bu təşəbbüs Mətbuat Şurasında təqdir edilmişdi.

"Azərbaycan Ordusu" qəzeti əsgərlərin dünyaduyumunun genişləndirilməsi, milli-mənəvi hazırlığının yüksəldilməsi məqsədilə hərbi hissələrdə bu və ya digər mövzuda disputlar da təşkil edir. Mahiyyəti vətənpərvərlik olan bu tədbirlər Azərbaycan əsgərinin istər dövlətçilik tariximizi, istərsə də hərb tariximizi öyrənməsində mətbu "dərslik" olur.

"Azərbaycan Ordusu" qəzeti Azərbaycan jurnalistikasının klassik və çağdaş ənənələrini yaradıcı formatda uğurla davam etdirir. İstər Aprel döyüşləri ərəfəsində, istər İkinci Qarabağ müharibəsi ərəfəsində, istərsə də antiterror əməliyyatı ərəfəsində Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığının daha yüksək səviyyədə formalaşmasının söz cəfakeşi olan bu mətbu orqan da tarixin axarındadır. Azərbaycan Ordusunun tarixinin söz yaddaşı kimi 2016-cı ilin Aprel döyüşləri başlayanda qəzetin əməkdaşları döyüşlər gedən ərazilərə ezam edildilər. "Azərbaycan Ordusu"nda dərc edilən reportajlar həm müharibənin geniş informativ xronikasının yaradılmasında, həm də döyüşən ordunun döyüş əzminin, qələbə ruhunun yüksəldilməsində əhəmiyyətli oldu. Bu, "Azərbaycan Ordusu" üçün döyüş təcrübəsi oldu, bu təcrübə əsasında İkinci Qarabağ müharibəsində fəaliyyət daha miqyaslı, daha əhatəli, daha məzmunlu və daha elmi-hərbi səviyyəsi ilə tarixləşdi.

Demokratik inkişafı azad mətbuatsız təsəvvür etməyin mümkünsüzlüyünü bildirən dövlət başçımız deyib ki, "Mən həm operativlik, həm milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın fəaliyyətini yüksək qiymətləndirirəm". Bu qürurun işığı "Azərbaycan Ordusu"na da düşür...

Azərbaycanın dövlətçilik tarixi də çox zəngindir, hərb tarixi də. İstər xanlıqlar dövründə, istər xanlıqların dağılma ərəfəsində, istərsə də cümhuriyyət dövründə Azərbaycanda hərbi ənənələrin başlıca mahiyyəti azərbaycançılıq olub, Azərbaycan dövlətçiliyinin müdafiəsi, onun yadellilərdən qorunması olub. Bu tarixi gerçəkliyə söz işığı tutan tədqiqatlar olub, o tədqiqatları da 34 ildir ki, "Azərbaycan Ordusu" ictimailəşdirir. "Hərb tariximizdən" rubrikası ilə dərc olunan məqalələr bu istiqamətdə həm mətbu, həm də mənəvi borcödəmədir.

"Azərbaycan Ordusu"nun fəaliyyəti mətbu Azərbaycanda ordu quruculuğu prosesində iştirak etməklə dövlətçiliyin əsgəri olmaqdır.

"Azərbaycan Ordusu" qəzetini ürəyinin gözü ilə oxuyanlar bir daha əmin olurlar ki, sözün işığı görünmür, duyulur, hiss edilir. Bu mətbu orqan 34 ildi müstəqil Azərbaycanda sözün işığını yaşadanların, Füzulimizin "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz" kəlamını jurnalistikamızın mənəvi andı bilən qəzetlərin sırasındadır...

"Azərbaycan Ordusu" qəzetində dərc edilən məqalələr, reportajlar azərbaycançılığın söz (mətbu söz) ifadəsi olur. İkinci Qarabağ müharibəsinə kimi "Əsgər ürəyindən başlayır Vətən", "Səngər müvəqqəti dayanacaqdı Böyük Qələbənin yolları üstə!", "Səngərləri sərhədlərə köçürəcəyik!", ... kimi məqalələrin mahiyyəti Azərbaycan əsgərinin Hərbi Andının davamı idi. İkinci Qarabağ müharibəsinin döyüşlərinin tarixləşdirilməsində mətbu orqan olmaq baxımından bu qəzet sözü ilə dövlətə, dövlətçiliyə sədaqətin simvolu oldu. Tarixi Zəfərdən, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra "Azərbaycan Ordusu" Azərbaycan Ordusuna inamını, ehtiramını, sevgisini "Sağ ol, Azərbaycan əsgəri!" kimi mətbu ricətlə bildirdi...

"Azərbaycan Ordusu" mətbu sözün işığında Vətənə xidmət edənlərə əsgəri sədaqətlə xidmət edir. Mahmud Məhəmmədoğlunun "Əsgərə məktub"u Azərbaycan Ordusunun əsgərinə, deməli, Azərbaycan Ordusuna ehtiramın söz təsdiqi kimi tarixləşmişdi, zamanında qardaşı əsgər olan əsgərlər ezamiyyətə gedən əməkdaşlarımıza o məqaləni də xatırladır.

Xankəndidə Azərbaycan Ordusu gənclərinin forumunda yüksək rütbəli zabitlərdən biri səmimiyyətlə demişdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti "Azərbaycan Ordusu"nu öz sırasında bilir...

"Azərbaycan Ordusu" "Əkinçi" ilə başlayan mətbuatımızın müstəqillik dövründə ilk hərbi mətbu orqanıdı. Birinci Qarabağ müharibəsi başlayanda, ordumuz döyüşə-döyüşə formalaşdığı, formalaşa-formalaşa döyüşdüyü bir vaxtda yarandı - 1992-ci ilin 11 fevralında. Azərbaycançılıq ruhunun işığında Azərbaycan dövlətinin sipəri olan Azərbaycan Ordusunun söz əsgəri - "Azərbaycan Ordusu" da deyir ki, "Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən!"...

**Rəşid HÜSEYNOV**
**əməkdar jurnalist**



# Azərbaycanın hərbi attaşesi Kayseri və Kahramanmaraşda şəhid ailələrini ziyarət edib

*Azərbaycanın hərbi attaşesi, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Zeynalov Gürcüstanda qəzaya uğrayan "C-130" hərbi-nəqliyyat təyyarəsində həlak olmuş hərbi qulluqçuların Kayseri və Kahramanmaraş vilayətlərindəki ailələrini ziyarət edib.*

AZƏRTAC xəbər verir ki, general-mayor Zaur Zeynalovu Türkiyə Milli Müdafiə Nazirliyinin nümayəndələri müşayiət ediblər.

Hərbi attaşe Kayseri vilayətində şəhid mayor Serdar Uslunun ailəsi ilə söhbətində Azərbaycanın iki qardaş ölkənin qəhrəmanları arasında fərq qoymadığını vurğulayıb.

Vətən Müharibəsi Qəhrəmanı, həmçinin Türkiyə Silahlı Qüvvələrinin şəhid mayoru Nihat İlgen, baş gizir Nuri Özcan və gizirlər Ümit İncə və Burak Özkanın ailələrini də ziyarət edib.

Azərbaycanın hərbi attaşesi şəhidlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verərək qeyd edib ki, hər bir hərbçi Vətən uğrunda canından keçməyə hazırdır.



Vətən Müharibəsi Qəhrəmanı şəhidlərin Azərbaycan və Türkiyənin hər bir vətəndaşı üçün igidlik və fədakarlıq nümunəsi olduğunu vurğulayıb. İki ölkə arasında qardaşlığın və birliyin sarsılmazlığının rəmzi olaraq, qəhrəmanların ailələrinə Azərbaycan Bayrağı təqdim edilib.

Kayseri vilayətində Azərbaycanın hərbi attaşesi, həmçinin qəhrəmanların xidmət etdiyi Türkiyə Silahlı Qüvvələrinin 12-ci Hava Nəqliyyatı Bazasını ziyarət edib və bölmə komandanlığına başsağlığı verib.



General-mayor Z.Zeynalov Kahramanmaraş vilayətinə də səfər edib, orada gizir Emre Altınokun xatirəsi yad olunub. İki qardaş ölkənin şəhidlərinin ruhuna dualar oxunub.

Həlak olan qəhrəmanların ailələri və yaxınları şəhidlərin xatirəsinə göstərilən diqqətə görə Azərbaycan rəhbərliyinə və xalqına minnətdarlıqlarını bildiriblər.

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım tədbirləri keçirildi




Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Rüfət Əsgərov, Adıgözəl Bəşirov, İsmayıl Mehdiyev və Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsinə həsr olunmuş anım mərasimləri keçirilib.

Əvvəlcə şəhidlərimizin məzarları ziyarət olunub, üzərinə gül dəstələri düzülərək xatirələri ehtiramla anılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində və 269 nömrəli orta məktəbdə təşkil edilən tədbirlərdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, məktəblilər, şəhidlərin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Tədbirlərdə Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Çıxış edənlər torpaqlarımızın işğaldan azad olunması uğrunda qazanılmış şanlı Qələbənin tarixi əhəmiyyətindən, şəhidlərimizin döyüşlərdə göstərdikləri igidlik və şücaət nümunələrindən bəhs edərək onların şərəfli həyat yolundan danışıblar.

Anım mərasimlərində hərbi-vətənpərvərlik mövzusunda bədii kompozisiyalar təqdim olunub.

Sonda şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

* * *

Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış şanlı tarixdir. Bu müqəddəs savaşda torpaqlarımızın azadlığı və dövlətimizin suverenliyi uğrunda canından keçən igid oğullarımız xalqımızın əbədi qürur mənbəyinə çevriliblər. Belə igidlərdən biri də Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan leytenant Elməddin Niyaməddin oğlu Qəhrəmanovdur.

Şəhid leytenant Elməddin Qəhrəmanovun doğum günü münasibətilə Kəngərli rayonunda anım tədbiri keçirildi. Kəngərli rayon Mədəniyyət evində təşkil olunan tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı, müavinləri, aparat əməkdaşları, güc strukturlarının nümayəndələri, rayonun idarə və təşkilatlarının əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları iştirak etdilər.

Əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov şəhidin ailəsinə dərin hörmət və ehtiramını ifadə edərək bildirdi ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində misilsiz qəhrəmanlıq nümayiş etdirərək torpaqlarımızı işğaldan azad etdi.



Qeyd olundu ki, bu tarixi Qələbə şəhidlərimizin canı, yaralanaraq sağlamlığını itirmiş övladlarımızın fədakarlığı, döyüşçülərimizin igidliyi və xalqımızın sarsılmaz birliyi hesabına qazanıldı.

Natiq çıxış edərkən şəhid Elməddin Qəhrəmanovun həyat və döyüş yolundan bəhs edərək onun döyüş meydanında göstərdiyi igidliyi xüsusi vurğuladı. Bildirildi ki, şəhidimiz yüksək vətənpərvərlik ruhu, qətiyyəti və mübarizliyi ilə silahdaşlarına örnək olub, son nəfəsinə qədər Vətənə sədaqət nümunəsi göstərib.

Tədbirdə çıxış edən şəhid valideynləri, veteranlar, Əlahiddə Ümumqoşun Ordunun zabitləri şəhidlərin igidliyinin gələcək nəsillər üçün əsl vətənpərvərlik məktəbi olduğunu bildirdilər. Qeyd edildi ki, bu cür tədbirlər şəhidlərimizin əziz xatirəsinin yaşadılması, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması baxımından mühüm əhəmiyyət daşıyır. Elməddin kimi igidlər Vətənimizin müqəddəsliyini qoruyan mənəvi dayaq, xalqımızın qürur ünvanıdır.

Tədbir çərçivəsində şagirdlər şəhidlərimizin xatirəsinə həsr olunmuş şeirlər səsləndirdilər. Leytenant Elməddin Qəhrəmanovun həyat və döyüş yolunu əks etdirən videoçarx qonaqlara nümayiş etdirildi.

Sonda şəhidin atası Niyaməddin Qəhrəmanov çıxış edərək ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə, dövlət qurumlarına və tədbir iştirakçılarına minnətdarlığını bildirdi. Tədbir xatirə fotolarının çəkdirilməsi ilə başa çatdı.

Qeyd edək ki, leytenant Elməddin Qəhrəmanov 2020-ci il oktyabrın 6-da Ağdam rayonu istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə o, 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub.

(Ardı 7-ci səhifədə)

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım tədbirləri keçirildi



(Əvvəli 6-cı səhifədə)

28 yanvar 2001-ci il. Culfa rayonunun Xoşkeşin kəndində bir oğul dünyaya göz açır. O zaman heç kim bilmirdi ki, bu körpə bir gün adını Vətən tarixinin qəhrəmanlıq səhifələrinə yazanlardan biri olacaq. Bu gün isə biz Coşqun Orucovun mövlud gününü bir igidin ömür yoluna ehtiramla xatırlayırıq. Ailəsi ilə birlikdə Bakı şəhərinin Suraxanı rayonunda yaşayan Coşqun orta təhsilini 315 nömrəli məktəbdə alır.

Coşqunun anası Fərqanə xanımla söhbət zamanı onun məktəb illərini xatırlayarkən səsində həm sevinc, həm də kövrəklik duyulur. Şəhidin anasını dinləyərkən hiss etdim ki, oğlu haqqında hər söz onun üçün qürurvericidir. O dedi ki, Coşqun müəllimlərinin sevimlisi idi - səmimi, mehriban, nümunəvi. “Dərslərini yaxşı oxuyar, dostları arasında seçilərdi. Balaca yaşlarından idmana maraq göstərərdi. Ən böyük arzusu hərbi məktəbdə oxumaq idi. Bu arzu gerçəkləşməsə də, Vətən sevgisi onu başqa bir şərəfli yola apardı.

Coşqunun Vətənə, bayrağa bağlılığı uşaq yaşlarından hiss olunurdu. Hərbçi olmaq istəyi də elə bu sevgidən doğmuşdu. 2019-cu ildən müddətli həqiqi hərbi xidmətini Naxçıvan Muxtar Respublikasında yerləşən "N" hərbi hissəsində başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmətini Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlısı olaraq davam etdirdi”.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Coşqunun həyat yolunu əbədiyyətə bağladı. O, 16 oktyabrdan etibarən kəşfiyyatçı kimi döyüşlərə qatıldı, Füzuli və Xocavənd istiqamətində gedən ağır döyüşlərdə iştirak etdi. Coşqunun döyüş yoldaşları anası ilə söhbəti zamanı onun cəsurluğundan, qorxmazlığından və mərdliyindən danışdılar.

Şəhidin anası dedi ki, Coşqun çox zəhmətkeş, qeyrətli və məsuliyyətli idi. "Yaxşı döyüşçü olduğunu bildiyimdən nigaran qalmazdım".

Amma müharibə başlayandan sonra ana nigaranlığı üstün gəlib. Oğlunun hər zəngi bir təsəlli, hər səsi bir ümid idi. Son zəngində isə Coşqun cəmi bir cümlə deyib: "Ana, səni öpürəm. Darıxma, hər şey yaxşı olacaq".

Oktyabrın 23-də Hadrut istiqamətində gedən ağır döyüşlərdə düşmən gülləsi igid döyüşçünü şəhidlik zirvəsinə ucaltdı. Ana ilə danışarkən mən də ürəyimdə onun itkisini hiss etdim; sözsüz, amma dərin bir boşluq bütün otağı doldurmuşdu.

Fərqanə xanım bildirdi ki, o xəbəri alanda yaşadıqlarını sözlə ifadə etmək mümkün deyil. Bala itkisi ağır dərddir. Videolara baxmaq çətindir. Amma bu ağrının içində bir qürur var: "Mən balamla həmişə fəxr etmişəm". Döyüş yoldaşlarının Coşqun haqqında söylədiyi hər söz anaya təsəlli olur, onu yaşamağa ruhlandırır. Çünki Coşqun özünə həmişə şərəfli yol arzulamışdı və o yolu şəhidliklə tamamladı.

Şəhid Coşqun Orucov 26 oktyabr 2020-ci ildə uğrunda canından keçdiyi bayrağa bükülüb, Vətən torpağına tapşırılır. O, Suraxanı rayonunun Dədə Qorqud qəsəbəsində dəfn edilir.

Cəsur döyüşçü Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Coşqunun doğum günündə ana ilə həmsöhbət olduğum o dəqiqələri unutmaq mümkün deyil. Bu söhbətdə bir ehtiram, qürur və sonsuz sevgini hiss etdim. Və fikirlərimi bu cümlələrlə bitirmək istədim... Şəhidimizi mövlud günündə ehtiramla anır, ailəsinə səbir diləyirik. Vətən üçün doğulanlar heç vaxt ölmürlər.

* * *

Naxçıvan şəhərində antiterror əməliyyatı şəhidi baş leytenant İbrahim Qasımovun doğum günündə onun məzarı ziyarət olundu, üzərinə tər çiçəklər düzüldü.

Daha sonra Naxçıvan Texniki Kollecində keçirilən tədbirdə gənc yazar Əzizə Həsənovanın qələmə aldığı "Üçrəngli bayrağımın dördüncü rəngi Şəhidim" adlı kitabının təqdimatı oldu.

Tədbirdə əvvəlcə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən igid oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Texniki Kollecin direktoru Asəf Ruşanov Azərbaycanın vətənpərvər övladlarının ölkəmizin ərazi bütövlüyü uğrunda göstərdiyi qətiyyəti, fədakarlığı və şücaəti yüksək qiymətləndirərək İbrahim Qasımov kimi igidlərin həyatı və döyüş yolunun gələcək nəsillər üçün bir məktəb rolu oynadığını qeyd etdi. Natiq, həmçinin torpaqlarımızın azadlığı uğrunda gedən İkinci Qarabağ müharibəsində, "Qisas", antiterror əməliyyatı və digər əməliyyatlarda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi zəfərlərə qısaca nəzər salaraq, bu qələbələrdə xalq-ordu birliyinin əvəzsiz rolunu vurğuladı.

Şəhidin doğum günü münasibətilə onun ailəsinə ən səmimi hisslərini çatdıran Asəf Ruşanov onlara dərin hörmət və ehtiramını ifadə etdi. Eyni zamanda, kitabın müəllifi Əzizə Həsənovaya təşəkkürünü bildirərək belə əsərlərin təhsil ocaqlarında təqdimatının əhəmiyyətindən danışdı.

Tədbirdə şəhid ailələrindən Əbülfət Əliyev, Gürşad Sadiqova, Naxçıvan Şəhər İcra Hakimiyyətinin Müharibə Veteranları və Şəhid Ailələri ilə İşin Təşkili Şöbəsinin müdiri İsmayıl Gülməmmədov, Naxçıvan MR Yazıçılar Birliyinin sədri Asim Yadigar, eləcə də digər yazarlar, şairlər, şəhidin sinif yoldaşları, müəllimləri və Əlahiddə Ümumqoşun Ordunun zabiti çıxış etdilər. Bildirildi ki, şəhid baş leytenant İbrahim Qasımov Vətən qarşısında xidməti borcunu sona qədər layiqincə yerinə yetirib və onun adı Azərbaycan Ordusunun şərəfli tarixində fədakarlıq və sədaqət rəmzi kimi yaşayır. Çıxış edənlər qeyd etdilər ki, şəhidlərimizin keçdiyi həyat və xidmət yolu gənc nəslin milli ruhda formalaşmasında mühüm mənəvi dayaqdır.





Daha sonra kitabın müəllifi Əzizə Həsənova çıxış edərək kitabın ərsəyə gəlməsində ona dəstək olanlara, məlumatların hazırlanmasında yaxından iştirak edənlərə təşəkkürünü bildirdi, şəhidin həyat yoldaşına və anasına hədiyyələr təqdim etdi.

Sonra şəhidin atası Malikəjdər Qasımov və qardaşı Allahverdi Qasımov çıxış edərək bu əlamətdar gündə ailənin yanında olduqlarına görə bütün tədbir iştirakçılarına və kitabın müəllifinə minnətdarlıqlarını bildirdilər.

Tədbir kollec tələbələrinin hazırladığı ədəbi-bədii kompozisiya və xatirə fotosunun çəkdirilməsi ilə başa çatdı.

Qeyd edək ki, Qasımov İbrahim Malikəjdər oğlu 1992-ci il yanvarın 29-da Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Əliabad şəhər orta məktəbində alıb, daha sonra Azərbaycan Kooperasiya Universitetinə qəbul olub.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu olan İbrahim Qasımov 44 günlük Vətən müharibəsində iştirak edib və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub. O, 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilmiş antiterror əməliyyatı zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasına uğrunda qoyulmuş tapşırıqları layiqincə yerinə yetirdiyinə görə İbrahim Qasımov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhid ailəli idi və Malik adlı bir oğul övladı Vətənə əmanət qalıb.

* * *

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış leytenant Elçin Yalçın oğlu Əsgərovun doğum günü ruhu müqəddəs məzarı önündə dərin ehtiram və hörmətlə yad edildi.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək, şəhid leytenant Elçin Əsgərovun mənalı və şərəfli həyat yolundan, Vətənə və dövlətə sədaqətlə xidmətindən bəhs etdi. Qeyd olundu ki, Elçin Əsgərov hələ gənc yaşlarından yüksək vətənpərvərlik ruhu ilə seçilib, Hərbi Anda sadiq qalaraq, üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirib. Onun döyüş meydanında göstərdiyi igidlik və şücaət silahdaşları üçün əsl nümunə olub. Vurğulandı ki, şəhidin timsalında Azərbaycan gəncliyinin Vətənə bağlılığı, torpaq sevgisi və sarsılmaz döyüş ruhu bir daha öz təsdiqini tapır.

Çıxışda bildirildi ki, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq, onların şücaəti gələcək nəsillər üçün örnək olacaq. Şəhid valideynlərinin göstərdiyi böyük fədakarlıq xüsusi qeyd olundu, onların cəmiyyət üçün ən əziz və dəyərli insanlar olduqları vurğulandı. Dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğının bundan sonra da davam etdiriləcəyi diqqətə çatdırıldı.

Həmçinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbədən bəhs edilərək bildirildi ki, bu zəfər Azərbaycan Ordusunun qüdrətini, xalq-ordu birliyini və şəhidlərimizin qanı bahasına əldə olunan böyük Qələbənin əhəmiyyətini bütün dünyaya nümayiş etdirib.

Anım mərasiminin sonunda şəhidin məzarı önünə tər qərənfillər düzüldü. Tədbir xatirə şəklinin çəkdirilməsi ilə başa çatdı.

Qeyd edək ki, şəhid leytenant Elçin Əsgərovun anadan olmasının 29-cu ildönümüdür. O, 1997-ci il fevralın 3-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya göz açıb. Elçin qısa, lakin mənalı ömrünə böyük bir Vətən sevgisi sığdırıb. O, adi bir ömür yaşamadı - xalqının taleyində iz qoyan, torpaq uğrunda savaşda yazılan bir ömür yaşadı.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan gün cəsur zabit əmrə uyğun olaraq ön cəbhəyə yollanıb. Cəbrayıl və Füzuli istiqamətlərində gedən ağır və qanlı döyüşlərdə Azərbaycan əsgərinin iradəsini, Azərbaycan zabitinin cəsarətini döyüş meydanında nümayiş etdirib. Elçin Əsgərov 2020-ci il oktyabrın 25-də Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə Vətən yolunda canından keçərək şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Elçin Əsgərov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Onun ən böyük mükafatı isə xalqının qəlbində yaşaması, azad edilmiş torpaqlarda dalğalanan üçrəngli bayrağımızdır.

**Bəxtiyar ƏLİYEV**
**“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin mətbuat katibi**

# Şəxsi intizam uğurun başlanğıcıdır

(Əvvəli 1-ci səhifədə)

Avtomobilləri idarə edənlər sürücülərdir. Onlar bunun üçün xüsusi kurs keçirlər, maneələrlə təchiz olunmuş xüsusi zolaqlarda sürücülük vərdişlərini necə mənimsədikləri barədə təcrübəli müəllimlər tərəfindən imtahan edilirlər.

Həm nəzəri, həm də praktiki imtahandan keçən şəxslərə sürücülük vəsiqələri verilir. Hərbi xidmətdə bu sahəyə daha çox ehtiyac duyulur. Hərbi xidmətə çağırılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına (sürücü kimi qeydiyyatdan keçənlərə) xüsusi hazırlıq kursu keçirilir. Kurs müddətində sürücülər həm nəzəri, həm də praktiki olaraq bilik və bacarıqlarını artırırlar. Amma müddətdən artıq həqiqi hərbi xidmət edən əsgərlər üçün bu cür kurslar qısa müddətə təşkil olunur. Onlar hərbi xidmətə qəbul edilərkən bilik və bacarıqları nəzərə alınır. Həmin vaxt peşəkar sürücü kimi xidmətə cəlb olunurlar.

Əsgər Elxan Ağayev də bacarıqlı sürücülərdəndir. O, iki ilə yaxındır ki, hərbi xidmətdədir. Elxan avtomobili bacarıqla idarə etməklə yanaşı, ona vaxtlı-vaxtında texniki qulluq da göstərir. Yük avtomobilini daim təmiz saxlayır. Hər dəfə çıxışdan qayıtdıqdan sonra avtomobilin texniki vəziyyətini nəzərdən keçirir. Əgər avtomobilin istənilən bir hissəsində nasazlıq aşkar edərsə, onu dərhal aradan qaldırır. Sürücü Elxan Ağayev deyir ki, o, tez-tez çıxışda olur. Şəxsi heyəti təlimə aparır, təlimdən gətirir. Müxtəlif təyinatlı çıxışlar onun üçün həm maraqlı, həm də məsuliyyətlidir. Sürücü kimi xidmətə başladığı gündən avtomobilin nasazlığına görə heç vaxt yolda qalmayıb. Bunu da avtomobilə vaxtında göstərdiyi texniki qulluqla əlaqələndirir.

"Texnika da qulluq xoşlayır. Vaxtında suyu, yağı dəyişməklə mühərrikin ömrünü uzadırsan. Maşının elektrik sistemi də qulluq tələb edir. Avtomobil çıxışa çıxmazdan əvvəl texniki nəzarət məntəqəsi rəisi tərəfindən yoxlanılır. Hələ yadıma gəlmir ki, çıxış öncəsi avtomobildə hər hansı bir nasazlıq aşkar edilsin və onu aradan qaldırıb yoluma davam edim. Çünki idarə etdiyim avtomobil həmişə işlək vəziyyətdə olub. Aşkar olunan ən xırda nöqsanı belə dərhal aradan qaldırıb parklamada saxlamışam. Bu da məndə bu peşəyə olan sonsuz sevgidən irəli gəlir".



Elxan Ağayev geyiminə görə də silahdaşları arasında nümunədir. O, həmişə hərbi geyimini təmiz və səliqəli saxlamaqla digər yoldaşlarına da örnək olur. Sürücü əsgər geyiminə fikir verdiyi kimi, təhkim olunan avtomobilə də ciddi yanaşır. Bu səbəbdən də o, həm komandirləri, həm də sürücü dostları tərəfindən sevilir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### ABŞ-da məktəbdə atışma baş verib



ABŞ-ın Merilend ştatının Montqomeri əyalətində Tomas Vutton adına məktəbdə bir nəfər güllələnib. Polis atışmanın məktəb binasının içərisində baş verdiyini təsdiqləyib.

Güllələnən şəxsin vəziyyəti barədə heç bir məlumat verilməyib.

### Nigeriyada yol qəzasında 30 nəfər ölüb



Nigeriyanın şimal-qərbində baş verən yol qəzasında 30 nəfər ölüb, çoxlu sayda insan yaralanıb.

Hadisə Kvanar Bardedə baş verib. Hadisəyə yük maşınının sürücüsünün ehtiyatsızlığı səbəb olub.

Ölkənin Federal Yol Təhlükəsizliyi Qurumunun məlumatlarına görə, Afrikanın bu ölkəsində 2024-cü ildə 9570 yol qəzası olub, 5421 ölüm hadisəsi qeydə alınıb.

Mütəxəssislər deyirlər ki, yol şəbəkəsi, qanunların zəif icrası və bəzi sürücülərin intizamsızlığı kimi amillər bu acınacaqlı statistikanın yaranmasına əsas səbəbdir.

Afrika dünyada ən çox yol qəzasının baş verdiyi yerdir. Halbuki, dünya nəqliyyat vasitələrinin yalnız 3 faizi bu qitədədir.

### Qazaxıstanda qar uçqunu olan ərazidə 12 nəfər xilas edilib



Qazaxıstanın Almatı vilayətində xilasedicilər qar uçqunu olan ərazidə 12 nəfəri xilas ediblər. Onlardan biri azyaşlıdır.

Almatı vilayətinin müvafiq idarəsinin "112" qaynar telefon xəttinə İliy rayonunun Kurta kəndindən 10 kilometr məsafədə iki avtomobilin qar uçqunu olan ərazidə köməksiz qalması barədə məlumat daxil olub.

Dərhal hadisə yerinə yollanan xilasedicilər güclü qar fırtınası şəraitində vətəndaşların qurtarılması üçün qəza-xilasetmə əməliyyatı aparıblar.

Əməliyyat nəticəsində təxliyə edilən şəxslər yaxınlıqdakı Konayev şəhərinə çatdırılıb. Onlara hər hansı tibbi yardım göstərilməsi zərurəti olmayıb.

### Cənubi Koreyada helikopter qəzasında 2 pilot ölüb



Cənubi Koreyanın Kyongi əyalətində "AH-1S Kobra" hərbi helkopteri təlim uçuşu zamanı qəzaya uğrayıb.

Qəza yerli vaxtla saat 11:00-da (Bakı vaxtı ilə 6:00) Qapyonq rayonunda baş verib. Helikopterin xəsarət alan pilotları xəstəxanaya çatdırılıblar. Onlara ilkin olaraq ürək tutması diaqnozu qoyulub. Həkimlərin səylərinə baxmayaraq, pilotların həyatını xilas etmək mümkün olmayıb.

Qəzadan sonra partlayış və yanğın qeydə alınmayıb.

### Filippində Mayon vulkanı yenidən püskürüb



Filippində Mayon vulkanında təkrar püskürmə baş verib.

Bu barədə ölkənin Vulkanologiya və Seysmologiya İnstitutu məlumat yayıb. Bildirilib ki, Mayon vulkanında yanvar ayından bəri ardıcıl püskürmələr baş verib. Bölgədə üçüncü təhlükə səviyyəsi hələ də davam edir.

Qeyd edək ki, hündürlüyü 2500 metrədək olan Mayon vulkanı konusvari formaya malikdir. Filippində ən aktiv vulkan hesab olunur.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Türkiyə Superliqası: "Fənərbağça"dan inamlı qələbə



Futbol üzrə Türkiyə Superliqasında XXI tura yekun vurulub.

Son oyun günündə 3 oyun keçirilib.

Çempionluğa iddialı "Fənərbağça" öz meydanında "Gənclərbirliyi"ni məğlub edib - 3:1.

Digər matçlarda "Kocaelispor" səfərdə "Kayserispor"a, "Qaziantep" isə evdə "Kasımpaşa"ya 2:1 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, turnir cədvəlinə 52 xalla "Qalatasaray" başçılıq edir. "Fənərbağça" 49 xalla ikincidir.

### İsveçrəli xizəkçi Qış Olimpiya Oyunlarında nadir göstəriciyə imza atıb



İsveçrəli sərbəst xizəkçi Matilda Qremo İtaliyada keçirilən Qış Olimpiya Oyunlarında sloupstayl üzrə qızıl medal qazanıb.

2022-ci ildə Pekin Olimpiadasında da eyni növdə fəxri kürsünün ən yüksək pilləsinə qalxmış idmançı nadir göstəriciyə imza atıb.

O, Qış Olimpiya Oyunları tarixində istənilən sərbəst növdə titulunu qoruyan ilk qadın idmançı olub.

Qeyd edək ki, "Milan-Kortina-2026" Qış Olimpiya Oyunlarına fevralın 22-də yekun vurulacaq.

### Azərbaycanlı pilot Formula 4 avtomobili ilə ilk təcrübəsini yaşayıb



Azərbaycanlı yeniyetmə pilot Davin Cəfərov "Formula Winter Series" yarışına dəvət alıb.

O, Portuqaliyanın Portimao trekində Formula 4 avtomobili ilə ilk rəsmi test sessiyasını keçirib.

Pilot yağışlı və çətin şəraitdə baş tutan sessiyada debüt etməsinə baxmayaraq, test gününü qəzasız başa vurub və 224 kilometr/saat maksimal sürətə çatıb.

Davinin avtomobilə nəzarəti və soyuqqanlı çıxışı komanda rəhbərliyi və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

### Lamiyə Vəliyeva yeni ölkə rekordu müəyyənləşdirib



Azərbaycan atleti Lamiyə Vəliyeva yeni ölkə rekordu müəyyənləşdirib.

İdmançı buna qapalı məkanda keçirilən 42-ci Azərbaycan çempionatında nail olub.

O, böyüklər arasında 200 metr məsafəyə qaçışda 24.64 saniyə nəticə göstərib.

### Azərbaycan Paralimpiya Oyunlarında: 30 ildə 68 medal




Milli Paralimpiya Komitəsi Azərbaycan idmançılarının indiyədək Yay Paralimpiya Oyunlarında qazandığı medalların sayını açıqlayıb.

Bu müddət ərzində 38 paralimpiyaçımız mükafatçılar sırasında yer alıb, ümumilikdə 68 medal əldə edilib. Medalların 27-si qızıl, 21-i gümüş və 20-si bürünc əyarlıdır.

İdmançılarımız ümumilikdə 27 Paralimpiya, 29 dünya (4-ü komanda yarışında) və 55 Avropa çempionluğu (4-ü komanda estafet yarışında) qazanıblar.

Qeyd edək ki, fevralın 9-da Milli Paralimpiya Komitəsinin yaradılmasının 30 ili tamam olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor** mayor Ceyhun CƏFƏRLİ

**Telefon** Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22

**Ünvanımız** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı** 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Tədqim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi** Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 61
Nüsxə 3621